www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-09 (1813) 15 may 2025-ci il



# Ümummilli Lider Heydər Əliyevin 102-ci ildönümü qeyd olunub

## Rektor, professor Gəray Gəraybəyli: Gənclərimiz bugünkü Azərbaycanın banisini dərindən öyrənməlidirlər

səh. 2

## Universitetimizin rəhbərliyi və kollektivi Ulu Öndərin məzarını ziyarət edib

səh. 2

## ATU ilə Belarus Dövlət Tibb Universiteti arasında memorandum imzalanıb

səh. 2

## Əczaçılıq sənayesinə həsr olunmuş ilk beynəlxalq tədbir keçirilib

səh. 5



## Azərbaycan Tibb Universitetində beynəlxalq Tibb Festivalı keçirilib

Rektor, professor Gəray Gəraybəyli: 95 il öncə ATU-nun yaradılması ölkəmizdə səhiyyə və tibb təhsilinin inkişafında dönüş nöqtəsi idi

səh. 3

## Allergiyasız gələcəyə doğru

*Beynəlxalq konfransda yeni müalicə metodlarından danışılıb*

səh. 6

## Peyvəndləmə “kollektiv immunitet” formalaşdırır

*Təranə Tağı-zadə: İctimai sağlamlığın təmini immunizasiya ilə başlayır*

səh. 7



## Tibb Festivalı geniş konsert proqramı ilə başa çatıb

Üç gün davam edən tədbirdə müxtəlif ölkələrdən 6 universitet rektoru, 87 mütəxəssis iştirak edib, 327 elmi məruzə dinlənilib

səh. 4



# Universitetimizin rəhbərliyi və kollektivi Ulu Öndərin məzarını ziyarət edib

Mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Azərbaycan Tibb Universitetinin rəhbərliyi və kollektivi Ulu Öndərin məzarını ziyarət edib. Ümummilli Liderin məzarı önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad olunub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

# ATU ilə Belarus Dövlət Tibb Universiteti arasında memorandum imzalanıb

**Mayın 5-də Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Belarus Dövlət Tibb Universitetinin rektoru, professor Sergey Rubnikoviçi qəbul edib.**



Həmkarların görüşündə iki təhsil müəssisəsi arasındakı əlaqələrin genişlənməsi, ortaq layihələrin həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə olunub. Rektor G.Gəraybəyli Azərbaycan Tibb Universitetinin fəaliyyətində prioritet istiqamətlərdən birini təşkil edən beynəlxalq əlaqələrin genişlənməsi yönündə həyata keçirilən tədbirlər, son illər əsası qoyulan uğurlu əməkdaşlıqlar haqqında ətraflı danışıb. Həmçinin ATU-nun beynəlxalq standartlara uyğun tədris proqramı, bu sahədə əldə edilmiş nailiyyətlər, ümumilikdə Azərbaycan səhiyyə sistemi barədə qonağı məlumatlandırıb.

Azərbaycana səfərindən məmnun olduğunu bildirən professor Sergey Rubnikoviç rəhbərlik etdiyi qurumun təhsil sistemi, tədris proqramları və universitetdə aparılan islahatlar haqqında məlumat verib. Qeyd edib ki, Belarus Dövlət Tibb Universitetində 3000-ə yaxın əcnəbi vətəndaş təhsil alır. Əcnəbi təhsilalanların sayı hər bir universitetin beynəlxalq nüfuzunun göstəricisidir. Qonaq ATU-nun əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirərək, iki təhsil ocağı arasındakı əməkdaşlığın faydalı olacağına əminliyini bildirib.

Sonda rektorlar iki universitet arasında əməkdaşlıq memorandumunu imzalayıblar.

Bu sənəd ATU və BDTU arasındakı əlaqələrin genişlənməsi, ortaq layihələrin həyata keçirilməsi, birgə elmi-tədqiqatların aparılması, təcrübə və bilik mübadiləsi kimi önəmli müddəaları əhatə edir. Saziş, həmçinin səhiyyə və tibb təhsili sahəsində müasir yanaşmaları təşviq etmək məqsədi daşıyır.

Qeyd edək ki, qonaq rektor və onunla birlikdə ölkəmizə gəlmiş nümayəndə heyəti ATU-nun Tədris Stomatoloji və Tədris Cərrahiyyə klinikalarında olub, şöbələri gəziblər. Klinikalara baxış zamanı qonaqları İnzibati-təsərrüfat işləri üzrə prorektor İlqar Mehrabov və Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Nigar Ələkbərova müşayiət ediblər.

# Ümummilli Lider Heydər Əliyevin 102-ci ildönümü qeyd olunub

## Rektor, professor Gəray Gəraybəyli: Gənclərimiz bugünkü Azərbaycanın banisini dərindən öyrənməlidirlər






**Azərbaycan Tibb Universitetində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbiri universitetin rektoru, professor Gəray Gəraybəyli açaraq bildirib ki, ölkəmizin hər yerində və ölkəmizdən kənarda Ümummilli Liderin anadan olması günü ilə bağlı tədbirlər təşkil edilir.**

Rektor vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri danılmazdır: “Tibb Universitetində əvvəllər H.Əliyevin anadan olması, anım günü və digər tarixi hadisələrə həsr olunmuş tədbirlərdə universitetin professor-müəllim heyəti iştirak edərdi. Ancaq keçən ildən qərara gəldik ki, bu tədbirlərin böyük hissəsini tələbələr üçün təşkil edək. Məlumdur ki, professor-müəllim heyəti yaşlı bir nəsildir, bu tarixin müəyyən hissəsini özləri görüb, canlı şahidləri olublar. Ancaq tələbələrimiz, gənclərimiz tarixi hadisələri bizdən öyrənir. Nə qədər kitablar yazılsa, filmlər çəkilsə, məktəblərdə tarix dərsləri keçilsə belə, kifayət deyil. Bu gün sakit, firavan həyat yaşayan gənclər xalqımızın keçmişdə hansı ağır şəraitlə üzləşdiyindən məlumatlı olmalıdırlar. Bilməlidirlər ki, Azərbaycan heç də həmişə indiki kimi hər sahədə inkişaf etmiş, nüfuzlu bir ölkə kimi tanınmayıb. Dövlətimizin qurulmasında, ölkəmizin hazırkı səviyyəyə çatmasında tarixi şəxsiyyət – Ulu Öndər Heydər Əliyevin böyük rolu olub”.

Professor G.Gəraybəyli çıxışı zamanı Ümummilli Liderin müasir Azərbaycanın tarixini yazanlardan biri olması, müstəqilliyimizi hansı çətinliklər bahasına qoruyub saxlamasından söhbət açıb: “Ulu Öndər hakimiyyətə gələn zaman elə məqamlar var idi ki, Azərbaycan bir dövlət kimi müstəqilliyini itirə bilərdi. Ancaq o, uzaqgörən siyasəti nəticəsində bütün maneələri aradan qaldırdı və Azərbaycanın gün-gündən inkişaf etməsinin təməlini qoydu. Ölkəmizi parçalamaq istəyən qüvvələrin arzuları puç oldu.

Ona görə də istər Tibb Universitetində, istərsə də digər universitetlərdə oxuyan gənclərimiz tariximizin bu şanlı səhifələrini öyrənməli və bilməlidirlər ki, bugünkü Azərbaycanın yaradıcısı var. O, fenomen şəxsiyyət, böyük siyasi lider, sözün əsl mənasında Azərbaycan xalqının xilaskarı Ulu Öndər Heydər Əliyevdir. Böyük bir xoşbəxtlikdir ki, onun qoyduğu təməli, ideyaları bu gün layiqli davamçısı olan cənab Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva uğurla həyata keçirir”.

Sonra tədbir iştirakçıları Ümummilli Liderin həyat yolundan bəhs edən video-roliki izləyiblər. Burada onun xalqımız, dövlətimiz, müəllimlər, həkimlər və s. barədə ibrətamiz sözləri yer alıb.

Daha sonra uzun illər Prezident Heydər Əliyevin köməkçisi olmuş, Prezident Katibliyinin rəisi işləmiş professor Dilarə Seyidzadə çıxış edib. Dilarə xanım Ulu Öndərlə bağlı çoxsaylı xatirələrindən söhbət açıb, onun xalqına, millətinə, dilinə, dininə, mədəniyyətinə necə bağlı olduğunu nümunələrlə dilə gətirib: “Ölkədaxili və xarici səfərlərində həmişə iştirak etmişəm. Regionlarda əhalinin sosial rifahı ilə yaxından maraqlanırdı. Şikayətlərlə tanış olmağı və ona məlumat verməyi mənə tapşırmışdı. Ən yaralı yeri torpaqlarımızın itirilməsi və qaçqınlar problemi idi. Azərbaycanın müxtəlif ölçüdə xəritələrini hazırlatdırmışdı. Xarici səfərləri zamanı görüşlərində bizim haqlı, ermənilərin haqsız olduğunu xəritə üzərində izah edirdi. Ümumiyyətlə dünya liderləri onun zəngin biliyinə və geniş məlumatlılığına heyran qalırdılar. Hətta bəzən elə olurdu ki, onlar öz ölkələri ilə bağlı bilmədikləri hansısa bir məlumatı Ulu Öndərdən eşidirdilər”.

Professor D.Seyidzadə belə hallarla bağlı bir neçə misal çəkib. Bildirib ki, Avstriyaya səfər zamanı görüşdə iştirak edənlər və o cümlədən Avstriyanın prezidenti Ulu Öndərin çıxışını heyranlıqla dinləyiblər: “Ulu Öndər söhbəti zamanı Avstriya bəstəkarı İohan Ştrausla bağlı geniş məlumat verdi. Onun haqqında çəkilmiş filmdən, filmdə cərəyan edən hadisələrdən danışdı. Hamı təəccübləndi və Avstriya prezidenti belə bir filmi izləmədiyini dedi.

Yaxud Özbəkistana səfəri zamanı bu ölkə ilə bağlı söylədiklərinə mat qalmışdılar. Özbəkistanın Prezidenti İslam Kərimov çıxışı zamanı dedi ki, Azərbaycan xalqı xoşbəxtdir, çünki onun Heydər Əliyev kimi dahi lideri var. Bu cür misalları çox çəkmək olar”.

Dilarə xanımın xatirələri iştirakçılar tərəfindən maraqla qarşılanıb, tədbir xoş ovqatla başa çatıb.

**Qabil ABDULLAYEV**

**Universitetimizin 95 illik yubileyi və Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Tibb Festivalında bir sıra xarici ölkələrdən alim və tədqiqatçılar, mütəxəssislər də iştirak edirdilər. Tədbirin qonaqları sırasında Əbu Əli İbn Sina adına Buxara Dövlət Tibb İnstitutunun nümayəndə heyəti də var idi.**



# Buxara Tibb İnstitutunun rektoru Anatomiya muzeyi ilə tanış olub

Səfər çərçivəsində adıçəkilən institutun rektoru, Anatomiya kafedrasının professoru Şöhrət Taşayev Azərbaycan Tibb Universitetinin Anatomiya muzeyi ilə tanış olub. İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, t.ü.f.d, dosent Anar Abdullayev qonağa 1919-cu ildə professor V.İ.Razumovski tərəfindən əsası qoyulan Muzeyin inkişaf tarixi və zəngin kolleksiyası haqqında ətraflı məlumat verib.

Qeyd olunub ki, Anatomiya muzeyi hazırda 6 mindən artıq preparata malikdir. Son illər muzeyin ekspozisiyasının təkmilləşdirilməsi məqsədilə kafedra əməkdaşları tərəfindən müasir anatomik texnikadan istifadə etməklə çoxlu sayda yeni preparatlar hazırlanıb.

Muzeylə tanışlıqdan məmnun olduğunu bildirən professor Ş.Taşayev, həmçinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasında keçirilən dərs prosesində iştirak edib, tələbələrin bilik səviyyəsini yüksək qiymətləndirib.

Rektor kafedranın professor-müəllim heyəti və ATU-nun İnzibati-təsərrüfat işləri üzrə prorektoru İlqar Mehrabovla görüş zamanı rəhbərlik etdiyi qurumun elmi fəaliyyəti və əldə etdiyi uğurlardan bəhs edib, anatomiya sahəsində gələcək əməkdaşlıq və təcrübə mübadiləsi haqqında söhbət açıb. Sonda kafedranın məsləhətçi-professoru, əməkdar elm xadimi, Rusiya Tibb Elmləri və Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər akademiyalarının akademiki Vaqif Şadlinski qonağa redaktoru olduğu “Anatomik terminologiya” adlı kitabı hədiyyə edib.

# Ulu Öndərin ideyaları bu gün də davam etdirilir

**Mayın 7-də ATU-nun İctimai fənlər kafedrasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.**

Tədbiri giriş sözü ilə açan kafedranın müdiri, professor Qoşqar Əliyev “Ulu Öndərimiz Heydər Əliyevin ideyalarının ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi” mövzusunda geniş məruzə ilə çıxış edib. O, Heydər Əliyev şəxsiyyətindən və onun ölkəmiz qarşısındakı xidmətlərindən danışıb: “Ümummilli Liderimiz ölkədə ictimai-siyasi sabitliyi təmin etməklə yanaşı, demokratik dövlət konsepsiyasını uğurla həyata keçirmiş, bu siyasi kurs bütün istiqamətlərdə dövlətimizin müstəqilliyinin möhkəmləndirilməsinə və inkişafına xidmət etmişdir. Onun siyasi varisi, Müzəffər Ali Baş Komandanımız, möhtərəm prezident İlham Əliyevin rəhbərliyi altında müqəddəs torpaqlarımız düşməndən azad edilmiş və bütün ölkəmiz başdan-başa abadlıq meydanına çevrilmişdir”.

Bundan başqa, kafedranın dosentləri C.Sadıqov, G.Səfərova, F.Qəniyeva, N.Ələkbərova və müəllim B.Qasımovanın məruzələri dinlənilib. Tədbirdə kafedra müdirləri professor Zemfira Məmmədova və professor Natəvan Hacıyeva da iştirak ediblər.

# Azərbaycan Tibb Universitetində beynəlxalq Tibb Festivalı keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: 95 il öncə ATU-nun yaradılması ölkəmizdə səhiyyə və tibb təhsilinin inkişafında dönüş nöqtəsi idi

**Mayın 6-8-də Azərbaycan Tibb Universitetinin 95 illik yubileyi və Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş beynəlxalq Tibb Festivalı keçirilib. Türkiyə, Özbəkistan və Belarusdan gəlmiş alimlərin, tibb ictimaiyyəti nümayəndələrinin də qatıldığı festival aktual elmi mövzuların müzakirəsinə həsr edilib.**



Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstünün və ölkəmizin suverenliyi və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhid həkimlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər. Sonra qonaqlar Tibb Festivalının sərgi və startap guşəsinə baxıblar.

I Daxili xəstəliklər kafedrasının dosenti Törə Sadıqova və Ümumi cərrahiyyə kafedrasının assistenti Tapdıq Məmmədovun moderatorluğu ilə baş tutan Tibb Festivalının təntənəli açılış mərasimində Ulu Öndərimizin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himnimiz səsləndirilib.

Mərasimdə açılış nitqi ilə çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli 95 il öncə ali məktəbin yaradılmasını ölkəmizdə səhiyyənin və tibb təhsilinin inkişafı tarixində önəmli bir dönüş nöqtəsi kimi



qiymətləndirib. Rektor Ulu Öndər Heydər Əliyevin elmə, təhsilə, xüsusilə də tibb sahəsinin inkişafına böyük diqqət və qayğı ilə yanaşdığını, Azərbaycan Tibb Universitetinin inkişafını strateji əhəmiyyətli bir məsələ kimi dəyərləndirdiyini bildirib: “Ümummilli Lider həm dövlət müstəqilliyinin bərpasından əvvəlki, həm də müstəqillik dövründə dəfələrlə Azərbaycan Tibb Universitetində olub. Dahi Heydər Əliyev ideyalarının sədaqətli davamçısı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva üç dəfə universitetimizin tələbə-gəncləri, professor-müəllim heyəti ilə görüşüb, eləcə də ATU-nun nəzdində xalqımıza ərməğan etdikləri klinikaların təməlqoyma və açılış mərasimlərində iştirak ediblər”.

Professor G.Gəraybəyli müasir dövrdə ATU-nun fəaliyyəti və əldə olunan nailiyyətlərdən danışıb: “Hazırda 1500-dən çox əməkdaşı olan ATU kollektivində akademiklər, Milli Elmlər Akademiyasının müxbir üzvləri, əməkdar elm xadimləri fəaliyyət göstərir. Universitetdə təqribən 7500 tələbə təhsil alır ki, onların 3000-ə yaxını 45 ölkədən olan əcnəbi tələbələrdir. Xarici tələbələrin sayına görə Azərbaycan Tibb Universiteti ölkədəki ali məktəblər arasında öndə gedir. Bu göstərici həm də Azərbaycan Tibb Universitetinin dünya akademik ailəsində artan nüfuzunun və beynəlxalq əlaqələrinin göstəricisidir. Eyni zamanda, bu gün ATU-nun məzunları dünyanın dörd bir yanında peşəkar həkimlər və alimlər olaraq fəaliyyət göstərir, ölkəmizi layiqincə təmsil edirlər”.

Rektor qeyd edib ki, hazırda Azərbaycan Tibb Universiteti “Edu-Rank” və “H-index Azerbaijan” kimi nüfuzlu beynəlxalq platformalarda yüksək mövqe tutmağa çalışır. Həm yerli, həm də xarici ali məktəblərlə əlaqələri gücləndirən ATU 25-dən çox ölkə və 110-dan artıq universitet və elmi təşkilatla əməkdaşlıq edir. Müxtəlif beynəlxalq proqramlar vasitəsilə tələbə və müəllimlərin mübadiləsi uğurla həyata keçirilir. Son illər aparılan islahatlar tədrisin keyfiyyətinin artırılması və rəqəmsallaşmasına, beynəlxalq əməkdaşlığın genişlənməsinə, tədris proqramlarının beynəlxalq akkreditasiyadan keçməsinə xidmət edib. ATU “Tədqiqat universiteti” statusunun əldə olunması, infrastrukturun və idarəetmənin təkmilləşdirilməsi, startap təşəbbüslərinin genişləndirilməsi istiqamətində işləri də intensivləşdirib.

Professor Gəray Gəraybəyli qeyd olunan uğurların arxasında bütün kollektivin, o cümlədən müəllimlərin, tədqiqatçıların və tələbələrin fədakar əməyinin dayandığını bildirib: “Biz ATU ailəsi olaraq, gələcəkdə də səhiyyə sistemimizə dəyərli mütəxəssislər qazandırmaq, beynəlxalq akademik mühitdə mövqeyimizi gücləndirmək və elmin inkişafına töhfələr vermək yolunda qərarlıyıq. Sizinlə birgə bu şərəfli yolu getmək bizim üçün böyük fəxr və məsuliyyətdir”.

Çıxışının sonunda rektor G.Gəraybəyli yubiley münasibətilə hər kəsi təbrik edib, festival iştirakçılarına məhsuldar müzakirələr, elmi nailiyyətlər arzulayıb.

Rektorun çıxışından sonra ATU-




nun tarixi inkişaf yolundan və bu günündən bəhs edən “95 ilin işığında” adlı sənədli film nümayiş olunub.

Açılış mərasimində Tibb Festivalına qatılan nümayəndə heyətlərinin rəhbərləri də təbrik nitqi ilə çıxış ediblər. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli elm və təhsil, səhiyyə, mədəniyyət sahəsində aparılan islahatların əhəmiyyətindən danışıb. O, Azərbaycan Tibb Universitetinin ev sahibliyi etdiyi, ölkəmizdə bir elm bayramına çevrilən bu festivalı təməli Ulu Öndərimiz tərəfindən qoyulan və möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən uğurlu islahatların bariz bir nümunəsi kimi səciyyələndirib.

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, professor Əziz Əliyev də çıxışında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin tibb təhsilinin inkişafındakı müstəsna xidmətlərindən söz açıb. Bu tarixi ənənəyə sadiq qalan ölkə başçısı İlham Əliyevin də tibb sahəsinə hər zaman xüsusi diqqət ayırdığını vurğulayıb. Eyni zamanda rəhbərlik etdiyi ali məktəblə Azərbaycan






Tibb Universiteti arasında elmi əlaqələrin ildən-ilə genişlənməsinə diqqət çəkərək, bu istiqamətdə müştərək layihələrin həyata keçirildiyini, Tibb Festivalı çərçivəsində tibbin aktual problemlərinə dair maraqlı məruzələrin təqdim ediləcəyinə əmin olduğunu deyib.

Çıxışına Ulu Öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” milli konsepsiyasını xatırlatmaqla başlayan, həmçinin tədbir iştirakçılarını

*“Çırpınırdı Qara dəniz*
*Baxıb Türkün bayrağına!”* –

misraları ilə duyğulandıran Türkiyənin Sağlamlıq Elmləri Universitetinin rektoru, professor Kəmaləddin Aydın iki qardaş **ölkə** arasındakı elmi əlaqələrin inkişafından məmnunluğunu dilə gətirib.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru, professor Nazim Qasımov, Səmərqənd Dövlət Tibb Universitetinin rektoru, professor Cəsur Rzayev, Belarus Dövlət Tibb Universitetinin rektoru Sergey Rubnikoviç və Buxara Dövlət Tibb İnstitutunun rektoru, professor Şöhrət Taşayev də təbrik nitqi ilə çıxış edərək konqresin işinə uğurlar arzulayıblar.




Tədbir zamanı qonaqlar ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə xatirə hədiyyələri, o cümlədən Səmərqənd Dövlət Tibb Universitetinin fəxri professoru diplomunu təqdim ediblər.

Tibb Festivalının açılışında musiqiyə də yer verilib. Xalq artisti, “Şöhrət” ordenli professor Mənsum İbrahimov təbriklərini Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağımızı tərənnüm edən mahnılarla çatdırıb. Onu tarda xalq artisti Elçin Həşimov, kamançada əməkdar artist Elnur Əhmədov müşayiət edib.

Fasilədən sonra, eləcə də növbəti iki gün ərzində Tibb Festivalı öz işini universitetin tədris binalarında və klinikalarında panel sessiyalarla davam etdirib.

* * *

Qeyd edək ki, festival çərçivəsində Tələbə Elmi Cəmiyyətinin yekun və “ATUREK-13” konfransları da keçirilib.

Mayın 6-da TEC-in poster təqdimatlarının bir qismi və startap layihələri, mayın 7-də qalan poster təqdimatları və 6 paneldə çıxışlar, mayın 8-də isə sonuncu panel baş tutub. Universitetimizin tələbələri ilə yanaşı, Naxçıvan Dövlət Universitetinin (NDU) və Qazaxıstan, Özbəkistan, Qırğızıstan respublikalarının tələbələri öz tədqiqatlarını təqdim edib.

Ümumilikdə, festivalda I Müalicə-profilaktika fakültəsindən 5 tələbə slayd, 11 tələbə poster, II MPF-dən 7 tələbə slayd, 20 tələbə poster, İctimai səhiyyə fakültəsindən 5 tələbə slayd, 12 tələbə poster, Stomatologiya fakültəsindən 5 tələbə slayd, 11 tələbə poster, Əczaçılıq fakültəsindən 5 tələbə slayd, 16 tələbə poster, Hərbi tibb fakültəsindən isə 5 tələbə slayd, 11 tələbə poster təqdimatla çıxış edib. NDU-nun 10 tələbəsinin slayd, 6 tələbəsinin poster, eləcə də 11 özbəkistanlı, 7 qazaxıstanlı və 2 qırğızıstanlı tələbənin slayd təqdimatı izlənilib.

Startap paneli daxilində II “İDEATON” müsabiqəsi keçirilib ki, burada ATU-dan 7, Qırğızıstan Tibb Akademiyasından 2 tələbə olmaqla, ümumilikdə 9 startap layihəsi dinlənilib. Müxtəlif elm və təhsil müəssisələrindən dəvət olunmuş münsiflər tələbələrin tədqiqatlarını dinləyib və layihələrini inkişaf etdirmələri üçün onlara təkliflər veriblər.

“ATUREK-13” çərçivəsində cərrahiyyə, terapiya, nevrologiya və psixiatriya, mamalıq və ginekologiya, stomatologiya, klinik biokimya və mikrobiologiya, əczaçılıq və səhiyyənin təşkili, ictimai səhiyyə və fundamental elmlər, eləcə də pediatriya üzrə panel iclaslarında təbabətin ən müasir və aktual mövzularına dair maraqlı məruzələr dinlənilib.

Rezidentura və magistratura şöbəsinin müdiri, dosent İlhamə Mustafayeva bu il panel sessiyaların ötən ilkilərdən fərqli formatda keçirildiyini deyərək, qiymətləndirmənin obyektiv aparılması üçün elmi rəhbərlərin adlarının anonim saxlanıldığını qeyd edib. ATUREK-in konfransında ümumilikdə 22 magistr və 120 rezident məruzələrlə çıxış edib.

**Arif MƏMMƏDLİ**

# Tibb Festivalı geniş konsert proqramı ilə başa çatıb

## Üç gün davam edən tədbirdə müxtəlif ölkələrdən 6 universitet rektoru, 87 mütəxəssis iştirak edib, 327 elmi məruzə dinlənilib



**Azərbaycan Tibb Universitetinin 95 illik yubileyi və Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Tibb Festivalı mayın 8-də öz işini başa çatdırıb.**

Mərasimdə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli qeyd edib ki, universitetimizdə keçirilən Tibb Festivalı öz əhəmiyyəti və möhtəşəmliyi ilə yadda qalıb: “Üç gün davam edən Festivalda müxtəlif ölkələrdən 6 universitet rektoru, eləcə də Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Belarus və Rusiyanın bir sıra elm-təhsil müəssisələrindən 87 nəfər elm adamı iştirak edib, 14 elmi sessiyada 327 elmi məruzə dinlənilib. Deməк olar ki, tibbin bütün sahələrini özündə əks etdirdən bu festivalda müasirliyi və aktuallığı ilə seçilən elmi mövzular müzakirə olunub. Bir çox iştirakçıların və çıxışçıların ümumi rəyinə görə, festivalımız çox uğurla həyata keçirilib. Tədbirimizin belə geniş və əhatəli, həmçinin möhtəşəm alınmasında əməyi keçən hər bir əməkdaşımıza ürəkdən təşəkkür edirəm və doğma universitetimizə bundan sonra da yeni-yeni nailiyyətlər arzulayıram”.

Rektorun çıxışından sonra söz musiqiyə verilib. Tədbirin aparıcıları - Müalicə-profilaktika fakültəsinin 4-cü kurs tələbəsi Nigar Babayeva və 2-ci kurs tələbəsi Anar Xəlilov Azərbaycan Tibb Universitetinin yaranma tarixindən söhbət açıb və Ulu Öndər Heydər Əliyevin “Azərbaycan Tibb Universiteti Azərbaycan Respublikası və xalqı qarşısında böyük xidmətlər göstərmişdir” ifadəsini bir daha diqqətə çatdırıblar.

Bundan sonra konsertin senarisi əsasında Müalicə-profilaktika fakültəsinin 5-ci kurs tələbəsi Nicat Əhmədov “Azərbaycan” mahnısını ifa edib.

Tədbirin gedişində universitetimizə zaman-zaman rəhbərlik etmiş rektorların fəaliyyətindən danışılıb və onların haqqında hazırlanmış video-çarx nümayiş olunub. Sonra universitetin “Çinar” rəqs ansamblının qızları “Şuşanın dağları” rəqsini ifa ediblər.

Bağlanış mərasimində universitetimizin inkişaf tarixində danılmaz xidmətləri olan, adları ATU-nun şanlı tarixinə qızıl hərflərlə yazılmış korifey müəllimlər də yaddan çıxmayıb. Onların barəsində hazırlanan video-çarx izləndikdən sonra ATU-nun nəzdində fəaliyyət göstərən “Şəfa” instrumental ansamblının fəxri üzvü Nicat Nəsiblinin ifasında “Kimlər gəldi, kimlər getdi bu dünyadan” mahnısı səsləndirilib.

Ümummilli Liderin universitetimizə həmişə böyük ehtiram və qayğı ilə yanaşdığını vurğulayan aparıcılar əlavə ediblər ki, onun 1998-ci ildə ATU-nun 5-ci korpusunun açılışında və 2000-ci ildə Azərbaycan Tibb Universitetinin

70 illik yubiley mərasimində söylədiyi xoş sözlər və tövsiyələr kollektiv tərəfindən bu gün də böyük dəyər kimi xatırlanır.

Növbəti musiqi nömrəsini - “Sevgili canan”ı tarda Abdulrəhim Mürsəlov, kamançada Sadiq Nemətli, pianoda “Şəfa” ansamblının fəxri üzvü Fatimə Mirkazımlının müşayiəti ilə MPF-nin 5-ci kurs tələbəsi Minayə Yusifova təqdim edib. Bundan başqa, qardaş Türkiyədən olan tələbələrmiz, “Şəfa” ansamblının üzvü Cansu Güzel və Hasan Çinarın birgə ifasında “Bu qala daşlı qala” xalq mahnısı tədbirə xüsusi rəng qatıb.

Tədbirdə müstəqillik illərində torpaqlarımızın erməni qəsbkarları tərəfindən işğal olunması, dünya dövlətlərinin uzun illər bu qəsbkarlığa göz yummasına da toxunulub, xalqımızın Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşərək ədaləti bərpa etdiyi, işğala son qoyduğu vurğulanıb. Vətən torpaqlarının azadlığı uğrunda canlarından keçmiş qəhrəman şəhidlərimizin sırasında ATU-nun məzunlarının da olduğu diqqətə çatdırılıb, onlar haqda video-çarx izlənilib. Ardınca MPF-nin 5-ci kurs tələbəsi Nihad Salahlı “Əziz dostum” mahnısını səsləndirib.

Ötən 95 ildə universitetimizdə on minlərlə gəncin həkimlik peşəsinə yiyələndiyi qeyd olunub və xalqımızın sağlamlığı keşiyində dayananların böyük hörmətə layiq olduqları vurğulanıb. Bundan sonra pianoda Samir Səfərov və xorda “Şəfa” ansamblının xanım üzvlərinin müşayiəti ilə MPF-nin 6-cı kurs tələbəsi Ülkər Gülmalıyeva “Ağ xalatlı həkimlər” mahnısı ifa edib.





Son illər aparılan məqsədyönlü islahatlar nəticəsində günü-gündən gözəlləşən və daha müasir elm ocağına çevrilən universitetimizin reytinqinin dünya səviyyəsində yüksəldiyini söyləyən aparıcılar ATU-da təhsil alan əcnəbi tələbələrin Azərbaycan tarixini, ədəbiyyatını, musiqisini və eləcə də milli dəyərlərimizi öyrəndiklərini də dilə gətiriblər. Ardınca qardaş Türkiyədən olan MPF-nin 2-ci kurs tələbəsi Sezer Çelikin ifa etdiyi “Bil oğlum” mahnısı zalda böyük coşqu yaradıb.

Bundan başqa, “Çinar” rəqs ansamblının üzvləri, MPF-nin 2-ci kurs tələbələri Məryəm Nəsibova, Ülkər Gülmalıyeva və Nicat Əhmədov, Əczaçılıq fakültəsinin 4-cü kurs tələbəsi Sona Əkbərlinin ifaları tədbir iştirakçıları alqışlarla qarşılayıb.

Zəngin repertuarı yüksək əhval-ruhiyə üzərində köklənmiş musiqili ədəbi-bədii konsert proqramı Dövlət Himninin sədaları altında başa çatıb.

**M.ƏLƏKBƏRLİ**



## “Azərbaycan Tibb Universiteti Jurnalı”nın ilk sayı 95 illiyə həsr olunub

**ATU-nun Elmi Tədqiqatların İdarə Olunması Departamentinin təşəbbüsü ilə “Azərbaycan Tibb Universiteti Jurnalı”nın (İSSN 2788-9807) ilk buraxılışı işıq üzü görüb. Jurnalın ilk nömrəsi Azərbaycan Tibb Universitetinin 95 illiyinə həsr olunub.**

Jurnalın baş redaktoru ATU-nun rektoru, professor Gəray Gəraybəyli, baş redaktor müavinləri Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan və I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Rauf Bəylərov, elmi redaktoru professor Eldar Qarayev, məsul katibi dosent Sevinc Pənahovadır.

İlk buraxılışda təqdim olunan məqalələr tibb elminin müxtəlif sahələrini əhatə edən aktual mövzulara həsr olunmuş, ATU-nun professor-müəllim heyəti, tədqiqatçıları və gənc alimlərinin apardığı elmi işlərin nəticələrini əks etdirir. Jurnal təkcə Azərbaycan daxilində deyil, beynəlxalq səviyyədə də elm və təcrübə mübadiləsinə töhfə verməyi hədəfləyir.

Qeyd edək ki, “Azərbaycan Tibb Universiteti Jurnalı” Ali Attestasiya Komissiyasının 20.09.2024-cü il tarixli qərarı ilə tövsiyə edilən dövri elmi nəşrlər siyahısına daxil edilib. Bütün məqalələrə DOİ (digital object identifier) verilir. Nəşrlərə dair tələblərlə www.atuj.az saytında tanış olmaq olar.

## 95 illik münasibətilə idman festivalı keçirilib

**Azərbaycan Tibb Universitetinin “Təbib” Tədris İdman Mərkəzi və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə “Sağlam həyat” səyyar layihəsi çərçivəsində universitetin 95 illik yubileyinə həsr olunmuş idman festivalı keçirilib.**



Festivalın əsas məqsədi tələbələr və universitet əməkdaşları arasında sağlam həyat tərzinin təbliği, kütləvi bədən tərbiyəsinin təşviqi və idmanın gündəlik həyata inteqrasiyasına dəstək vermək olub.

Mərkəzin rəhbəri Qələndər Aslanovun verdiyi məlumata görə, tədbirdə universitetin 500-ə yaxın tələbə və əməkdaşı iştirak edib: “Festival çərçivəsində iştirakçılar üçün həm əyləncə xarakterli idman yarışları, həm də müxtəlif yaş qruplarına uyğun fiziki hazırlıq normativlərinin yoxlanılması təşkil olunub. Hər bir iştirakçı əvvəlcədən qeydiyyatdan keçib, öz yaş kateqoriyasına uyğun normativlərlə tanış edilib və “Təbib” Tədris İdman Mərkəzinin peşəkar məşqçi-müəllimlərinin dəstəyi ilə bu normativləri yerinə yetirib”.

Tədbirə xüsusi rəng qatan məqamlardan biri də “Ana məktəbi” uşaq bağçasından dəvət edilmiş 10 nəfər azyaşlının iştirakı olub. Onların enerjili və şən çıxışları alqışlarla qarşılanıb. Festivalın sonunda uğurla iştirak edən 145 nəfər Gənclər və İdman Nazirliyinin sertifikatları ilə təltif olunub.

## Hərbi tibb fakültəsində intellektual yarış təşkil edilib

**Hərbi Tibb fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşəbbüsü ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü, Azərbaycan Tibb Universitetinin 95 və Hərbi Tibb fakültəsinin 25 illik yubileylərinə həsr olunmuş “Brain storm” (Beyin fırtınası) adlı intellektual bilik yarışması-viktorina keçirilib.**



Viktorinanın məqsədi kursantların intellektual bilik səviyyələrinin yüksəldilməsi, komandada işləmək bacarıqlarının artırılması, liderlik qabiliyyətlərinin inkişaf etdirilməsi olub.

Kursantlar "Matriks", "Triumf", "Əfsanə" və "Arsenal" komandalarında birləşərək anatomiya, normal fiziologiya, daxili xəstəliklər, hərbi səhra cərrahiyyəsi, hərbi səhra terapiyası, tibb xidmətinin təşkili və taktikası fənləri üzrə sualları cavablandırıblar.

Gərgin mübarizə şəraitində keçən viktorinanın yekununda münsiflər heyətinin qərarı ilə "Triumf" komandası qalib elan olunub.

Qalib komandanın üzvləri və viktorinanın fəal iştirakçıları kubok, sertifikat və diploma təltif ediliblər.

# Əczaçılıq sənayesinə həsr olunmuş ilk beynəlxalq tədbir keçirilib

**Səhiyyə Nazirliyi və Macarıstanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə “Azərbaycan əczaçılıq sənayesi: dünən, bu gün və sabah” adlı beynəlxalq tədbir keçirilib.**



Tədbirdə çıxış edən səhiyyə naziri Teymur Musayev Ulu Öndər Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə ilk əczaçılıq istehsalı müəssisələrinin qurulduğunu, “Əczaçılıq fəaliyyəti haqqında” Qanunun qəbul olunduğunu, “Azərbaycan Respublikasında əczaçılıq sənayesinin İnkişafı Konsepsiyası”nın hazırlandığını bildirib: “Səhiyyə sahəsi Prezident İlham Əliyevin uzaqgörən siyasəti, müdrik rəhbərliyi və gərgin zəhməti sayəsində hərtərəfli inkişaf edir. Milli qanunvericilikdə son illərdə aparılan islahat tədbirləri, yaradılan əlverişli biznes mühiti əczaçılıq məhsullarına olan daxili tələbatı ödəməyə və gələcəkdə ixrac potensialını artırmağa yönəlib. Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsi əczaçılıq sahəsində respublikada aparıcı elmi-tədqiqat mərkəzinə çevrilib. Macarıstanın Semmelveis və Peç universitetləri ilə imzalanan əməkdaşlıq memorandumları bilik və təcrübələr mübadiləsini, akademik heyətin peşə hazırlığının artırılmasını nəzərdə tutur”.

Macarıstanın ölkəmizdəki səfiri Tamaş Torma əczaçılığın Macarıstan-Azərbaycan əməkdaşlığının əsas komponentlərdən biri olduğunu deyib: “Bu konfrans Macarıstanın Azərbaycanda əczaçılıq sənayesinin inkişafına töhfə vermək istəyinin bariz göstəricisidir. Macarıstanın iki ən tanınmış dərman şirkəti 1990-cı ildən etibarən Azərbaycanda fəaliyyət göstərir. Peç Universiteti və Azərbaycan Tibb Universiteti isə əczaçılıq mütəxəssislərinin hazırlanmasında əməkdaşlığa başlamaq niyyətindədir”.

Tədbirdə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, Tədris işləri üzrə prorektor Nazim Pənahov, o cümlədən ATU-nun Tədris Cərrahiyyə, Tədris Terapevtik və Tədris Stomatoloji klinikalarının direktorları da iştirak edib.

# Beynəlxalq Tibb Bacısı Günü qeyd edilib

**12 May - Beynəlxalq Tibb Bacısı Günü münasibətilə ATU-da “Müasir səhiyyədə tibb bacısının rolu” adlı tədbir keçirilib. Tədbirin moderatoru, İctimai səhiyyə fakültəsinin tələbə-dekanı Aytac Məmmədova gələcəyin peşəkar tibb bacıları və tibb qardaşlarını təbrik edərək onların hər birinə bu yolda güc, səbir və uğur arzulayıb.**



Tədbirdə çıxış edən universitetin Tərbiyə işləri üzrə prorektoru, dosent Mahir Səfərov bu əlamətdar gün münasibətilə ilk növbədə tədbir iştirakçılarına rektorun salamlarını və təbriklərini çatdırıb. Səhiyyə sisteminin əsas dayaqlarından olan tibb bacılarını və tibb qardaşlarını öz adından da təbrik edən prorektor, onların çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirib. Bu şərəfli peşəni seçənlərin təkcə mütəxəssis kimi deyil, həm də bir insan kimi sevilməsinin xüsusi önəmini vurğulayıb.

İctimai səhiyyə fakültəsinin “Tibb bacısı işi” ixtisası üzrə proqram koordinatoru, II Uşaq xəstəlikləri kafedrasının dosenti Fəxriyyə Məmmədova çıxışında tibb qardaşı və tibb bacısının səhiyyəmizdəki rolundan danışıb. O, bu mövzuda tələbələr arasında sorğu keçirildiyini deyib.

Sorğunun nəticələrini I kurs tələbəsi Vüqar Əlizadə diqqətə çatdırıb. 7 suallıq sorğuda 102 tələbə iştirak edib. Tibb bacısı ixtisası üzrə karyera və təhsil, elmi dərəcə ala bilmə imkanları, idarəetmə və rəhbərlik bacarıqları, müstəqil qərarvermə səlahiyyəti və digər məsələlərə dair suallar cavablandırılıb.

Tədbir zamanı general Əliağa Şıxlinskinin həyat yoldaşı, şəfqət bacısı Nigar Şıxlinskaya, II Dünya müharibəsi veteranı Fatma Səttarova, İkinci Qarabağ müharibəsində yaralı hərbçilərə döyüş meydanında tibbi yardım göstərərkən şəhid olan Arəstə Baxışova və onların timsalında yüzlərlə qəhrəman tibb işçilərinin şücaəti böyük ehtiramla xatırlanıb.

Daha sonra ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov və Qidalanma və tibbi ekologiya kafedrasının müdiri, dosent Fəridə Əli çıxış edərək tibb sahəsini tibb bacısız və tibb qardaşsız təsəvvür etməyin mümkünsüzlüyünü diqqətə çatdırıblar.

Tədbir interaktiv və əyləncəli hissə ilə - Kahoot oyunla yekunlaşıb. III kurs tələbəsi Fateh Əsədbəylinin idarə etdiyi interaktiv oyunda Aytac Əzimova, Emilya Quliyeva və Nicat Hümmətov ən yüksək nəticə göstərərək mükafatlandırılıblar. Mükafatları təqdim edən fakültənin dekanı, dosent Qalina Qəniyeva tədbirin təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsində mütəmadi olaraq xeyriyyə aksiyaları həyata keçirilir. Görmə qabiliyyəti zəif olan, bu və ya digər göz xəstəliklərindən əziyyət çəkən şəhid ailə üzvləri, qazilər, müharibə veteranları ödənişsiz olaraq müayinə və əməliyyat olunurlar.**

# Xeyriyyə aksiyasından istifadə edən jurnalistlərin sayı 154-ə çatıb

## Qurban İsmayılov: Onlarla media nümayəndəsi üzərində eksimer lazer əməliyyatı apardıq



Növbəti xeyriyyə aksiyaları “Modern” Media Qrupu ilə Azərbaycan Tibb Universitetinin ortaq sosial layihəsi çərçivəsində həyata keçirilib. Oftalmologiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Qurban İsmayılov və “Modern”in rəhbəri Elşad Eyvazlının təşəbbüsü ilə baş tutan layihədən bu dəfə çoxsaylı media nümayəndələri yararlanıb. Bu il bir neçə dəfə təşkil olunan xeyriyyə aksiyalarında xeyli jurnalist müayinədən keçib, ehtiyac olan pasiyentlərin olanların üzərində cərrahiyyə əməliyyatı aparılıb.

Q.İsmayılovun “Təbib” qəzetinə verdiyi məlumata görə, bu il qərara alınıb ki, həmin humanitar aksiya media nümayəndələrini əhatə etsin: “Ramazan bayramında 12 jurnalist eksimer lazer əməliyyat olundu. Azərbaycan oftalmologiyasının inkişafında müstəsna xidməti olmuş akademik Zərifə Əliyevanın doğum günündə - aprelin 28-də 65 jurnalist müayinədən keçdi, onlardan 12-nin üzərində müxtəlif göz əməliyyatları icra edildi.

Ümummilli Lider Heydər Əliyevin doğum gününə həsr olunmuş aksiyamızda müayinədən keçən jurnalistlərin cəmi sayı 154-ə çatdı. Onlardan 17 nəfər üzərində eksimer lazer cərrahi əməliyyatı aparıldı”.

Qeyd edək ki, tam ödənişsiz müayinə və əməliyyat olunmuş jurnalistlər ATU-nun rəhbərliyinə və başda Qurban İsmayılov olmaqla, Oftalmologiya şöbəsinin əməkdaşlarına minnətdarlıqlarını bildiriblər. Əlamətdar günlərdə yenə də bu tip aksiyaların davam etdirilməsi nəzərdə tutulub.

# Əsaslı kitabxanada Ulu Öndərin xatirəsi yad olunub




**Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Əsaslı kitabxanada maarifləndirici tədbir keçirilib.**

Tədbir zamanı tələbələrimiz Ümummilli Liderin zəngin irsini əks etdirən kitablarla tanış olublar. Tələbələrə müasir Azərbaycanın banisi, Ulu Öndər Heydər Əliyevin həyatı və misilsiz xidmətləri haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, kitabxananın kollektivi mütəmadi olaraq əlamətdar günlərlə əlaqədar tədbirlər və sərgilər keçirir. Bu cür addımlar gənc nəslin mütaliə marağının artırılmasına xidmət edir.

**Tanınmış plastik-rekonstruktiv cərrah, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru Vaqif Qələndər həmin akademiyanın təqdimatı əsasında bu günlərdə Almaniyanın Hannover şəhərində fəaliyyət göstərən Avropa Təbiət Elmləri Akademiyasının həqiqi üzvü seçilib.**

# Tanınmış professor Avropada ali mükafata layiq görülüb




O, dünya tibb elminə verdiyi nəzəri və elmi-təcrübi töhfələrinə görə, bu akademiyanın ali mükafatı olan Avropa Şərəf Ordeni ilə təltif edilib. Qeyd edək ki, professor V.Qələndər bu mükafata layiq görülmüş ilk azərbaycanlı həkimdir. Məlumat üçün bildirək ki, bir çox dərslik və dərs vəsaitlərinin müəllifi olan V.Qələndərin 6 yeni cərrahiyyə metodu, həmçinin 78 elmi əsəri bir sıra xarici ölkə jurnallarında və beynəlxalq konfrans materiallarında nəşr edilib.

# Məşhur şirkət ilk dəfə azərbaycanlı alimlərin kitabını çap edib

**Türkiyənin dünyaca məşhur “Nobel Tibb Kitab Evləri” beynəlxalq nəşriyyat və poliqrafiya şirkətində ilk dəfə azərbaycanlı alimlərin müəllifi olduğu kitab böyük tirajla çap edilib.**

Müasir tibbin ən yeni dövrünü özündə əks etdirən “Onkoloji ginekologiya” adlı monoqrafiya Milli Məclisin Səhiyyə Komitəsinin sədri, ATU-nun Onkoloji Klinikasının direktoru, akademik Əhliman Əmiraslanov, həmçinin klinikanın əməkdaşları professor Abuzər Qazıyev və uzman həkim Əkbər İbrahimov tərəfindən qələmə alınıb.

1048 səhifədən ibarət olan, nəfis tərtibatla dizayn edilmiş monoqrafiya onkoloji ginekologiyaya aid bütün mövzuları əhatə edir. Kitabın elmi redaktoru “H” indeksi kifayət qədər yüksək (28) olan dünya şöhrətli məşhur onkoginekoloq, Türkiyənin Hacettepe Universitetinin Onkoloji ginekologiya bölməsinin rəhbəri, tibb elmləri doktoru, professor Mehmet Coşkun Salmandır. Monoqrafiyanın tibb tələbələri üçün faydalı dərslik, onkoginekoloqlar üçün stolüstü kitab ola biləcəyini qeyd edən M.C.Salman “Onkoloji ginekologiya”nı tibbi ədəbiyyata töhfə kimi dəyərləndirib.

Monoqrafiyanın rəyçiləri Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əziz oğlu Əliyev və Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun direktoru, tibb elmləri doktoru, professor Cəmilə Fazil qızı Qurbanovadır.

Əsər müəlliflərin uzun illik şəxsi tədqiqatları və zəngin təcrübi bilikləri əsasında yazılıb. Kitabda 3000-ə yaxın dünya ədəbiyyatından seçilmiş məlumatların təhlili aparılıb, xarici mənbələrlə yanaşı, Azərbaycan alimlərinin də əsərlərinə istinadlar edilib. Kitab məzmun, tərtibat və elmi yenilik baxımından onkoloji ginekologiyaya dair Azərbaycan dilində yazılmış ilk irihəcmli orijinal əsərdir.



## Əməkdaşlarımız xarici səfərlərdə

Uşaq cərrahiyyəsi kafedrasının müdiri, professor Ramiz Poluxov, bu kafedranın dosenti Vüqar Məhəmmədov, Rezidentura və magistratura şöbəsinin müdir müavini, kafedranın assistenti Namiq Xəlilov Özbəkistanın Əndican Dövlət Tibb İnstitutunun 70 illiyinə həsr olunmuş yubiley tədbirlərində iştirak ediblər.

Konfransın rəsmi hissəsində rektor, professor M.Mədəzimov institutun keçdiyi inkişaf tarixindən, həmçinin əldə etdiyi nailiyyətlərdən danışıb. Əməkdaşlarımız R.Poluxov və N.Xəlilov ATU-nun rektoru, professor Gəray Gəraybəylinin və Azərbaycan Uşaq Cərrahları Assosiasiyasının təbrik məktublarını səsləndiriblər.

Üç gün davam edən yubiley tədbirində "Profilaktik təbabətdə yüksək innovativ texnologiyaların istifadəsi" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib. Cərrahiyyə bölməsində N.Xəlilov "Uşaqlarda oma-büzdüm nahiyəsinin anomal törəmələrinin cərrahi müalicəsi" mövzusunda çıxış edib.

Əməkdaşlarımız konfrans çərçivəsində Əndican Tibb İnstitutunda həyata keçirilən tədris prosesi ilə də tanış olub, müəllim və tələbələrlə görüşüb, Uşaq cərrahlığı və Mama-ginekologiya kafedralarının əməkdaşları ilə fikir mübadiləsi aparıblar.

* * *

Türkiyənin Antalya şəhərində ağciyər xəstəlikləri üzrə beynəlxalq konqres keçirilib. Türk Toraks Dərnəyinin təşkilatçılığı ilə keçirilən konqresdə 1200 nəfər iştirak edib.

Avropa Respiratorlar Cəmiyyəti, Amerika Torokal Cəmiyyəti və s. beynəlxalq təşkilatların rəhbərlərinin də qatıldığı konqresdə hava çirklənməsi və tütünçəkmənin tənəffüs orqanlarına zərərli təsiri, bronxial astma, ağciyər vərəmi, interstisial ağciyər xəstəlikləri, ağciyərlərin xronik obstruktiv xəstəliyi və digər ağciyər patologiyalarının diaqnostika və müalicəsinə müasir yanaşmalara həsr olunmuş məruzələr dinlənilib və qarşılıqlı fikir mübadiləsi aparılıb.

Konqresdə ölkəmizi təmsil edən Ağciyər xəstəlikləri kafedrasının müdiri Rafiq Bayramov ağciyər vərəmi işçi qrupunun "Klinik təcrübədə vərəmin müalicəsi, müşahidəsi və yan təsirlər" toplantısında moderator və müzakirəçi kimi iştirak edərək, müxtəlif ölkələrdən olan mütəxəssislərlə fikir mübadiləsi aparıb.

* * *

Türkiyənin Antalya şəhərində uşaq allerqologiyası, immunologiyası və astması üzrə 19-cu beynəlxalq konqres keçirilib.

Pediatrik allerqologiya və immunologiyanın aktual problemlərinə həsr olunmuş konqresdə Avropa Allerqologiya və Klinik İmmunologiya Akademiyasının təmsilçiləri də iştirak ediblər.

Bu konqresə ölkəmizin təmsilçisi qismində qatılan universitetimizin II Uşaq xəstəlikləri kafedrasının dosenti Məleykə Kərimova "IgE-dən asılı yumurta ağı allergiyası olan uşaqlarda tolerans dəyərləndirmə məqsədilə aparılan qida yükləmə testinin nəticələri" adlı bölümə moderatorluq edib.

* * *

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının baş müəllimi Rəna Qafarova Türkiyənin Niğde Ömer Halisdemir Universitetində akademik fəaliyyət göstərib.

O, Türk Dövlətləri Təşkilatı Türk Universitetlər Birliyinin Orhun mübadilə proqramı çərçivəsində adıçəkilən universitetin Tibb fakültəsində tələbələrə dayaq-hərəkət aparatı və mərkəzi sinir sistemi üzrə mühazirələr və praktik dərslər keçib. Səfər çərçivəsində əməkdaşımız, həmçinin universitetin tədris fəaliyyəti ilə yaxından tanış olub.

* * *

Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşı Günel Hacıyeva İstanbul Aydın Universiteti Diş həkimliyi fakültəsinin II beynəlxalq elmi konqresində məruzə ilə çıxış edib. O, "Artırılmış reallıq. Ziqoma implantasiyasında planlama və naviqasiya" adlı elmi məruzəsini iştirakçıların diqqətinə çatdırıb.

Elmi konqresin məqsədi tibb təhsili üzrə mütəxəssislərin bilik və təcrübə mübadiləsini təşkil etmək, həm ölkəmizdə, həm də qardaş Türkiyədə tibb elminin inkişafına töhfə vermək olub. Belə tədbirlər universitetlər arasında daha sıx əlaqələrin qurulmasına, əməkdaşlıq imkanlarının artırılmasına zəmin yaradır.

# Allergiyasız gələcəyə doğru

## Beynəlxalq konfransda yeni müalicə metodlarından danışılıb






**Azərbaycan-Türkiyə Allerqoloq və immunoloqlarının II beynəlxalq konfransı keçirilib.**

Tədbirdə Azərbaycan Tibb Universitetinin Allerqologiya və klinik immunologiya kafedrasının müdiri, "Azərbaycan Allerqoloq və İmmunoloqlar" cəmiyyətinin prezidenti, əməkdar həkim, professor Lalə Allahverdiyeva, MDB, Mərkəzi Asiya və Balkan ölkələrində MADx və "Immunotek" şirkətlərinin nümayəndəsi, molekulyar allerqologiya məktəbinin yaradıcısı, PhD Sergey Yuryev, ABŞ-dən professor Dana Wallace, Türkiyədən professorlar Ümit Murat Şahiner, Koray Harmancı, o cümlədən yerli alimlər, mütəxəssislər iştirak ediblər.

Konfransda molekulyar allergiya diaqnostikası sahəsində ən müasir və dəqiq metod sayılan ALEX² testi diqqət mərkəzində olub. Məlumat verilib ki, bu test 295 müxtəlif allergen və onların komponentləri üzrə fərdi həssaslıqları müəyyən etməyə imkan verir. Beləliklə, həkimlərə daha dəqiq və şəxsi yanaşma ilə müalicə planlaşdırmağa şərait yaradır. Çoxsaylı sensibilizasiya hallarında klassik dəri testləri və standart İFA analizləri klinik əhəmiyyətli allergeni dəqiq müəyyən edə bilmədiyi üçün, belə hallarda molekulyar allerqodiaqnostika mühüm rol oynayır.

Tədbirdə, həmçinin İspaniyanın "Immunotek" əczaçılıq şirkətinin effektiv müalicə üsulları da təqdim olunub. Şirkətin istehsal etdiyi Alksoid (5 yaşdan etibarən inyeksiya ilə immunoterapiya) və Oraltek (2 yaşdan etibarən dilaltı sprey) preparatlarının klinik olaraq təsdiqlənmiş effektivliyi və təhlükəsizliyi mövcuddur. Bu preparatlar allergik rinit və rinosinusitin müalicəsində istifadə olunur və bronxial astma və digər fəsadların qarşısını alır.

Çıxış edənlər diqqətə çatdırıb ki, Azərbaycanda son onilliklərdə allergik xəstəliklərin yayılması əhəmiyyətli dərəcədə artıb. Statistikaya əsasən, əhalinin 20-30%-i həyatında ən azı bir dəfə allergiya simptomları ilə qarşılaşır.

Konfransda pediatriyada və çətin hallarda molekulyar diaqnostikanın tətbiqi, əhalinin allergiya simptomları və vaxtında həkimə müraciətin vacibliyi, elmi araşdırmaların dəstəklənməsi və ölkə üzrə allergik xəstəliklərin milli reyestrinin yaradılması məsələləri müzakirə edilib, geniş təcrübə mübadiləsi aparılıb.

Tədbirdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev də iştirak edib.

## Kembricdə azərbaycanlı professorun kitabının təqdimatı olub

***Böyük Britaniyanın Kembric şəhərindəki St Catharine's Kollecində Azərbaycan Tibb Universitetinin Allerqologiya və immunologiya kafedrasının müdiri, əməkdar həkim Lalə Allahverdiyevanın "COVID-19: Əsrin xəstəliyi" ("COVID–19: Disease of the Century") adlı kitabının təqdimat mərasimi keçirilib.***



Mərasimdə britaniyalı professorlar və elmi ictimaiyyətin nümayəndələri iştirak ediblər. Professor L.Allahverdiyeva bildirib ki, bu kitab pandemiyanı yalnız tibbi aspektdən deyil, həm də qlobal miqyasda intellektual və strateji yanaşma prizmasından təhlil edən ilk əhatəli nəşrlərdən biridir. 20 fəsildən ibarət 256 səhifəlik kitabda 193 mənbəyə istinad olunub. Bu kitabda SARS-CoV-2 virusunun biologiyası, pandemiyanın başlanğıcı, xəstəliyin epidemiologiyası və patogenezi, COVID-19-un SARS və MERS virusları ilə müqayisəsi, klinik xüsusiyyətlər, diaqnostika və müalicə üsulları, vaksinasiya prosesi, əlaqəli göstərişlər, əks-göstərişlər, həmçinin uşaqlarda COVID-19 xəstəliyinin gedişatı, allergik xəstəlikləri olan pasiyentlərdəki xüsusiyyətlər geniş şəkildə araşdırılıb.

Lalə Allahverdiyeva çıxışında Naxçıvan Muxtar Respublikasında yerləşən "Duzdağ mağaraları"nda post-COVID sindromlu xəstələrin speleoterapiya üsulu ilə reabilitasiyasından da bəhs edib.

## Neyrocərrahların Birinci Beynəlxalq Konqresi keçirilib

***Mayın 10-da ANEA 2025 BAKU - Azərbaycan Neyrocərrahlarının I Beynəlxalq Konqresinin açılış mərasimi olub.***




Konqresdə ATU-nun Neyrocərrahiyyə kafedrasının müdiri, Azərbaycan Neyrocərrahlar Assosiasiyasının (ANEA) sədri Rövşən Xəlilzadə, TƏBİB-in icraçı direktorunun müşaviri Pərvin Əkbərov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müşaviri Nelli Veysova, konqresin Təşkilat komitəsinin sədri Tural Rəhimli və Böyük Britaniyadan gəlmiş fəxri qonaqlar - həkim Andreas Demetriadis və Henri Marş çıxış ediblər.

Diqqətə çatdırılıb ki, Bakıda ilk dəfə tanınmış neyrocərrahların iştirakı ilə keçirilən konqres ölkə səhiyyəsində təbabətin bu sahəsində təcrübə və bilik mübadiləsini təmin etməklə yanaşı, mütəxəssislər arasında əməkdaşlığın gücləndirilməsinə və neyrocərrahiyyə xidmətlərinin keyfiyyətinin artırılmasına xidmət edəcək, innovativ yeniliklərdən, müasir çağırışlardan xəbərdar olmaqda və onlara uyğunlaşmaqda faydalı rol oynayacaq. Konqresin gənc mütəxəssis və rezidentlərin bilik və bacarıqlarını artırmaq üçün unikal bir platforma olduğuna əminlik ifadə edilib.

Sonra "Kəllə əsası cərrahiyyəsi", "Epilepsiya cərrahiyyəsi", "Vaskulyar cərrahiyyə", "Pediatrik neyrocərrahiyyə", "Funksional cərrahiyyə", "Neyroonkologiya", "Neyroanatomiya", "Spinal cərrahiyyə" bölmələrində müzakirələr aparılıb.

## Essex Universiteti doktorantının iştirakı ilə seminar təşkil olunub

**Böyük Britaniyanın Essex Universitetinin magistrı və doktorantı, Debrecen Universitetinin Postgraduate Certificate in Higher Education Practice proqramının məzunu Aygün Ağayeva Tibb və sağlamlıq elmləri təhsili kafedrasında "İngiltərənin ali təhsil sistemində kurrikulum modelləri və strategiyalar" mövzusunda məlumatlandırıcı seminar keçirib.**



Kafedranın müdiri, dosent Samir Cavadlı seminarın mövzusu və əhəmiyyəti haqqında məlumat verərək, məruzəçini əməkdaşlara təqdim edib. A.Ağayeva əvvəlcə İngiltərənin ali təhsil sistemi, kurrikulumlar, o cümlədən tibb təhsili sahəsində kurrikulum modelləri, ali təhsil sistemində strategiyalardan danışaraq, təhsil sisteminin təşkili, araşdırma yönümlü təhsil haqqında məlumat verib və hazırda Essex Universitetində təhsil sahəsində araşdırdığı mövzu da daxil olmaqla bu sahədə öz təcrübələrini bölüşüb.

Daha sonra məruzəçi tədris və öyrənmə metodları, öyrədərək öyrənmə, ölçmə-qiymətləndirmə, formativ və summativ qiymətləndirmə üsulları, eləcə də süni intellektin tədrisdə rolu, təhsilə inteqrasiyası haqqında danışıb.

Seminarda adıçəkilən kafedra ilə yanaşı, I Uşaq xəstəlikləri, Normal fiziologiya və Yoluxucu xəstəliklər kafedralarının da əməkdaşları iştirak edib.

# Peyvəndləmə "kollektiv immunitet" formalaşdırır

## Təranə Tağı-zadə: İctimai sağlamlığın təmini immunizasiya ilə başlayır

**Hər il olduğu kimi, bu il də Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) nümayəndələri Beynəlxalq Pediatriya Assosiasiyasının (IPA) "Ümumdünya İmmunlaşdırma Həftəsi"ndə iştirak ediblər.**




APA-nın sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə bildirib ki, "Ümumdünya İmmunlaşdırma Həftəsi" zamanı peyvəndlərin həyatı xilas etmək gücü xüsusi vurğulanır: "Azərbaycan Pediatrlar Assosiasiyası da immunizasiyanın cəmiyyətin sağlamlığına təsirini və peyvəndlərin əhəmiyyətini geniş auditoriyaya çatdırmaq məqsədilə 30 ildir üzvü olduğu IPA-nın təşəbbüsünə qoşulur. ÜST və tərəfdaşlar immunizasiya proqramlarının gücləndirilməsi, peyvənd bərabərsizliyinin aradan qaldırılması və peyvəndlərə inamın bərpa olunması ehtiyacını vurğulamaqda davam edir. Unutmayaq ki, ictimai sağlamlığın təmini immunizasiya ilə başlayır. İmmunlaşdırma yalnız fərdi sağlamlıq deyil, həm də ictimai sağlamlığın təməlidir. Peyvəndlər sayəsində biz uşaqlarımızı bir sıra ağır və həyat üçün təhlükəli olan xəstəliklərdən – difteriya, qızılca, göyöskürək, poliomielit və digər yoluxucu infeksiyalardan qoruya bilirik. Statistik göstəricilər təsdiqləyir ki, vaxtında aparılan peyvəndlər hər il 2-3 milyon insanın həyatını xilas edir". Pediatrın sözlərinə görə, peyvəndləmə həm də "kollektiv immunitet" anlayışını formalaşdırır. Bu o deməkdir ki, əhalinin böyük əksəriyyəti peyvənd olunduqda, başqaları - immun çatışmazlığı olan, onkoloji xəstələr və ya allergiyaya görə peyvənd ala bilməyən insanlar da dolayısı ilə qorunur. Bu baxımdan hər valideynin sosial məsuliyyət daşıdığını unutmaması vacibdir.

# ATU-nun şöbə müdiri Qazaxıstanda olub

**Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Patoloji anatomiya kafedrası müdirinin tədris işləri üzrə müavini, dosent Müşfiq Orucov bu günlərdə Qazaxıstanın Almatı şəhərində olub.**



O, S.D.Asfendiyarov adına Qazax Milli Tibb Universitetinin nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının iclasında dəvət olunmuş üzv qismində iştirak edib. Bununla yanaşı, M.Orucov universitet ilə tanış olub, fakültə dekanları və bəzi kafedraların professor-müəllim heyəti ilə görüşüb. Görüşlər zamanı universitetlərimiz arasındakı əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsi müzakirə olunub.

**Ortopedik stomatologiya kafedrasının dosenti, t.ü.f.d. Rüfət Hüseynli Türkiyənin İzmir şəhərində yerləşən Ege Universitetində qonaq məruzəçi olaraq fəaliyyət göstərib.**

# Əməkdaşımız Ege Universitetində dərs deyib

R.Hüseynli Orhun mübadilə proqramı çərçivəsində universitetin tələbələri üçün öz ixtisasına uyğun mövzularda seminar dərsləri aparıb.

Ezamiyyə müddətində əməkdaşımız periodontologiya və protez bölümlərinin təşkil etdiyi beynəlxalq simpoziumda çıxış edib, habelə protez bölümü uzmanlıq tələbələri ilə seminar dərsləri keçib.



# Səyyar xidmət çərçivəsində 500-dən çox tələbə müayinə olunub

**Tədris Stomatoloji Klinikanın səyyar xidmətləri davam edir. Klinikanın əsas həkim heyəti və rezident-həkimlərin iştirakı ilə növbəti səyyar xidmət UNEC-in nəzdində Azərbaycan Maliyyə-İqtisad Kollecində keçirilib.**

Stomatoloji xidmətlərə əlçatanlığı artırmaq və cəmiyyətin ağız-diş sağlamlığını qorumaq məqsədilə həyata keçirilən aksiya çərçivəsində bu dəfə 500-dən çox tələbə müayinə olunub. Əsas diqqət ağız boşluğunda kariyes, diş əyrilikləri, diş əti xəstəlikləri və digər ortodontik-anatomik problemlərin erkən mərhələdə aşkarlanmasına yönəldilib. Aşkarlanan hallar qeydiyyata alınmaqla, vaxtında müdaxilə üçün ilkin tədbirlər görülüb.

Layihə çərçivəsində növbəti səyyar xidmətin Bakı şəhəri üzrə müxtəlif ərazilərdə həyata keçirilməsi planlaşdırılıb.



**Gender bərabərliyi və sağlamlıq problemləri, sağlamlığın qorunması, analıq məzuniyyəti və insan resursları həm qlobal miqyasda, həm də Azərbaycanda sosial siyasət istiqamətində mühüm aspektlərdəndir.**

# Əməkdaşımız gender siyasəti mövzusunda mühazirə oxuyub



Azərbaycanda gender bərabərliyi və sağlamlıq məsələləri dövlətin və vətəndaş cəmiyyətinin diqqət mərkəzindədir. Son illərdə bu sahədə hüquqi baza təkmilləşdirilir, qadınların və kişilərin bərabər hüquqlara malik olması, sağlamlığa bərabər çıxış imkanı və sosial rifahın təmin olunması istiqamətində müxtəlif proqram və təşəbbüslər həyata keçirilir.

Bu nöqteyi-nəzərdən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyası "Gender siyasəti və Həmkarlar İttifaqları: əsas istiqamətlər, problemlər və dünya təcrübəsi" mövzusunda təlim təşkil edib. Təlimin proqramına uyğun olaraq "Gender bərabərliyi və səhiyyə: sağlamlığın mühafizəsi, analıq məzuniyyəti və kadr resursları" mövzusunda ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının dosenti Fərəh Baxışlının mühazirəsi dinlənilib.

# Tibb bacıları və mamalar simpoziumu keçirilib

**Mayın 10-da Liv Bona Dea Hospitalda "Mərhəmətlə toxunan əllər. Gələcəyi şəkillənidirən güc" adlı tibb bacıları və mamalar simpoziumu keçirilib.**




İki paneldən ibarət olan simpoziumda ATU-nun İctimai səhiyyə fakültəsinin "Tibb bacısı işi" ixtisası üzrə proqram koordinatoru, dosent Fəxriyyə Məmmədova "Tibb bacısı işi" ixtisasının tədris modeli, gələcək perspektivləri haqqında "Gələcəyin səhiyyə liderləri. Tibb bacılığı təhsil modelləri: universitet modeli" adlı məruzə ilə çıxış edib.

Həmin ixtisas üzrə təhsil alan IV kurs tələbəsi Fatimə Bayramova "Tələbə gözü ilə Tibb bacısı ixtisası: gələcək necə şəkillənir" mövzusunda təqdimatla çıxış edərək, TBİ üzrə təhsil alan tələbələrin peşələrinə yanaşması haqqında danışıb. Simpoziumda İctimai səhiyyə fakültəsinin digər tələbələri də iştirak ediblər.

**Ölkəmizdə peşə xəstəlikləri sahəsində çox mühüm xidmətləri olan görkəmli alim, əməkdar müəllim, professor Ruxsara xanım Əliyeva bizləri daim halallığa, paklığa, saflığa çağıran, xanımlar-xanımı, yüksək biliyə malik elm xadimlərimizdəndir.**

# Zəkasından nur yağan görkəmli alim



O, 1959-cu ildə Azərbaycan Tibb İnstitutunun Sanitariya-gigiyena fakültəsini bitirdikdən sonra 1962-ci ilə qədər Culfa dəmiryolu SES-in baş həkimi vəzifəsində, 1963-cü ildə Sumqayıt şəhərində yerləşən Əmək gigiyenası və peşə xəstəlikləri institutunda kiçik elmi işçi, 1965-ci ildən isə əmək gigiyenası şöbəsinin müdiri işləyib. 1968-ci ildə namizədlik, 1992-ci ildə isə doktorluq dissertasiyası müdafiə edən Ruxsara xanım 1969-88-ci illərdə həmin institutda elmi işlər üzrə direktor müavini işləyə-işləyə ali məktəblərdə də müqavilə yolu ilə dərs deyib.

Azərbaycanda gigiyena elminin gələcəyi, onun inkişaf perspektivləri və yolları, bu sahədə mövcud imkanlar və problemlər professor R.Əliyevanı bütün həyatı boyu müşayiət edib. Məhz bu xüsusiyyətlər onun gigiyenist alim kimi Azərbaycan elmi qarşısında xidmətlərinin dəyərini daha da artırır. O, 3 monoqrafiya, 3 dərslik, 7 dərs vəsaiti, 5 sanitariya qaydalarının, 15 metodik vəsaitin, 300-dən artıq elmi məqalənin müəllifidir. Rusiyada nəşr olunan "Əmək təbabəti" ensiklopediyasının müəlliflərindəndir. 1993-cü ildən Moskvada işıq üzü görən "Əmək təbabəti və istehsalat ekologiyası" jurnalının redaksiya heyətinin üzvüdür.

Ruxsara xanım heç vaxt ucuz şöhrət dalınca qaçmayıb. Bilik və bacarığı, hələ gənc yaşlarından elmin enişli-yoxuşlu yollarında inamla addımlaması onu bu günə gətirib çıxarıb. Onun fitri istedadı, güclü erudisiyası, özünəməxsus deyim tərzi, oxuduğu mühazirələr dillər əzbəridir. Gigiyena elminin nəinki Azərbaycanda, bütövlükdə keçmiş Sovetlər birliyində sayılan-seçilən alimlərindən biri olub.

Pedaqoji fəaliyyəti zamanı gənc alimlərin, tələbələrin yetişməsi, müxtəlif konfranslarda çıxış etmələri üçün əlindən gələni edib və bu gün də edir. 1994-cü ildən ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının professorudur. "Səhiyyə əlaçısı", "Əmək veteranı", AAK-ın Ekspert şurasının və Dissertasiya şurasının üzvüdür. Onun rəhbərliyi altında 5 namizədlik dissertasiyası müdafiə olunub. 2018-ci ildə "Əməkdar müəllim" fəxri adına layiq görülüb.

İnsanın ömür kitabına hər şey yazılır – yaxşılıq da, pislik də. Ruxsara xanımın ömür kitabında namusla həyat sürən, heç kimə pislik etməyən, xeyirxah və pak alim adını görürük. Onun zehni fəaliyyətinin gücü indi də parlayır, qələmindən çıxan elmi əsərlər həmişə səviyyəsi ilə seçilir.

Ruxsara xanımı 90 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və yeni-yeni uğurlar arzulayırıq!

**Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının kollektivi adından kafedra müdiri, dosent Şəhla Balayeva**

# Qazaxıstanlı tələbələr ATU-da təcrübə keçib

Qazaxıstanın Astana Tibb Universitetinin İctimai səhiyyə fakültəsinin tələbələri universitetimizin Epidemiologiya və biostatistika kafedrasında 3 həftəlik istehsalat təcrübəsi keçiblər. Bu müddətdə onlar kafedradakı dərs proqramları, universitetdəki şərait, imtahan prosesi ilə yaxından tanış olublar.

Tələbələrlə görüşən kafedranın müdiri, əməkdar elm xadimi, professor İbadulla Ağayev onlara ATU-da təcrübə keçmələri haqqında müvafiq sertifikatlar təqdim edib.

Qeyd edək ki, səfər çərçivəsində tələbələr Respublika Gigiyena və Epidemiologiya Mərkəzində olaraq, mütəxəssislərin müşayiəti ilə mərkəzin strukturu, şöbə, bölmə və laboratoriyalarının iş fəaliyyəti ilə tanış olub, eləcə də Respublika QİÇS-lə Mübarizə Mərkəzində istehsalat təcrübəsi keçərək, geniş məlumatlar əldə ediblər.

* * *

S.D.Asfendiyarov adına Qazax Milli Tibb Universitetinin tələbələri isə 2 həftə ərzində Terapevtik stomatologiya kafedrasında "Kliniki endodontiya" fənni üzrə dərs alıblar.

Praktikanın sonunda onlara Stomatologiya fakültəsinin dekanı tərəfindən sertifikatlar təqdim olunub. Dekan Elmira Əliyeva praktika zamanı əldə etdikləri biliklər barədə tələbələrlə söhbət edib.

# Tələbələrimiz Bakı marafonunda rekord vurub

**Mayın 4-də ənənəvi olaraq Heydər Əliyev Fondunun təşəbbüsü ilə “Bakı Marafonu-2025” adlı beynəlxalq tədbir keçirilib. ATU-nun “Təbib” Tədris İdman Mərkəzinin müdiri Qələndər Aslanovun verdiyi məlumata görə, “Küləyə qalib gəl” şüarı ilə təşkil olunan bu marafona 27800 iştirakçı qeydiyyatdan keçib:**



“2016-cı ildən etibarən təşkil olunan bu marafon 21 kilometr məsafəni əhatə edir. Ənənəyə uyğun olaraq, marafonun start və finiş nöqtəsi Dövlət Bayrağı Meydanı idi”. Onun sözlərinə görə universitet bu il marafonda rekord sayda – 477 nəfərlə təmsil olunub: “Atletika üzrə məşqçi-müəllim Xatirə Şıxlının rəhbərliyi ilə tələbə və müəllim heyətimiz marafonda fəal iştirak edib. Yarış öncəsi Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyevanın və dekanlıq nümayəndələrinin marafona qatılması tələbələrdə yüksək motivasiya yaradıb. ATU-dan 62 nəfər 21 kilometrlik məsafəni ilk 2000 iştirakçı arasında başa vuraraq medal və sertifikatla təltif olunub. Medal qazananlar arasında yerli tələbələrlə yanaşı, Türkiyə, Türkmənistan, İordaniya, Sudan, Yəmən, Nigeriya, Hindistan, İran və digər ölkələrin vətəndaşı olan tələbələrimiz də var. Bundan başqa, 113 tələbə konkret vaxtlar təyin olunmuş məsafəni qaçaraq sertifikat əldə edib”.

ATU-da idmanın kütləviliyi və tələbələrin əldə etdiyi nailiyyətlər ildən-ilə artmaqdadır: tələbələrimiz 2022-ci ildə 29, 2023-cü ildə 33, 2024-cü ildə 57, 2025-ci ildə isə artıq 62 medal qazanıb. İndiyədək ATU-nun marafonda qazandığı nailiyyətlər ölkəmizin heç bir ali təhsil müəssisəsində əldə edilməyib.

**Hərbi tibb fakültəsinin rəhbər heyəti Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə onun xatirəsinə ucaldılmış abidəni ziyarət edərək gül dəstələri qoyublar.**

# Zabit və kursantlar şahmat taxtası arxasında yarışıb



Daha sonra şahmat yarışı keçirilib.

Yarışda fakültənin Rezidentura və təkmilləşdirmə kursunun zabitləri və Hərbi həkim ixtisası hazırlığı kursunun kursantları iştirak ediblər. Yarışın sonunda qaliblər müəyyənləşib. Tibb xidməti kapitanı Emin Ağayev 1, tibb xidməti baş leytenantı Ağanur Cavadov isə 2-ci yerə layiq görülüb.

# Voleybol turnirində 10 ali məktəbin komandası iştirak edib



Azərbaycan Tibb Universitetinin “Təbib” Tədris İdman Mərkəzinin və Bakı Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş ali təhsil müəssisələrinin tələbələri (oğlanlar) arasında voleybol turniri keçirilib.

Aprelin 26-dan start götürən yarışda 10 ali təhsil müəssisəsindən (ATU, ADA, BDU, BMU, BANM, AzTU, UNEC, Xəzər və Qərbi Kaspi universitetləri, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı) 88 tələbə iştirak edib. Yarışın final oyunu mayın 7-də baş tutub və qaliblər müəyyənləşib. Gərgin və maraqlı mübarizə şəraitində keçən turnirdə UNEC komandası 1-ci, AzTU komandası 2-ci, ATU komandası isə 3-cü yerlərə layiq görülüb.

Tədbirin bağlanış mərasimində çıxış edən ATU-nun “Təbib” Tədris İdman Mərkəzinin müdiri Qələndər Aslanov, Bakı Şəhər Gənclər və İdman İdarəsinin Nəsimi rayonu üzrə sektor müdiri Yusif Babanlı və idarənin baş məsləhətçisi Sirac Axundov ölkəmizin idman sahəsində əldə etdiyi uğurlardan, Ulu Öndərin həyat və fəaliyyətindən, onun bütün sahələrdə olduğu kimi, bədən tərbiyəsi, eləcə də bütövlükdə idmana göstərdiyi xüsusi diqqət və qayğıdan danışıblar.

# ATU-nun təsisçisi olduğu jurnalın yeni sayı işıq üzü görüb



“Azərbaycan Allerqologiya və Klinik İmmunologiya” jurnalının 2025-ci ildə ilk sayı işıq üzü görüb. Jurnalın bu sayında ATU-nun II və III Cərrahi xəstəliklər, Allerqologiya və immunologiya, Şüa diaqnostikası və terapiyası, II Uşaq xəstəlikləri kafedralarının və Elmi Araşdırmalar Mərkəzinin əməkdaşlarının məqalələri yer alıb.

Həmçinin 2024-cü ilin dekabrında ATU-nun Allerqologiya və immunologiya kafedrasının müdiri, “Azərbaycan Allerqoloq və İmmunoloqlar” cəmiyyətinin prezidenti, Azərbaycan respublikasının əməkdar elm xadimi, əməkdar həkim, tibb elmləri doktoru, professor Lalə Allahverdiyevanın təşəbbüsü ilə Bakı şəhərində keçirilən Azərbaycan-Türkiyə Allerqoloq və İmmunoloqlarının I beynəlxalq konfransı haqqında məlumat dərc edilib.

Xatırladaq ki, jurnal 2013-cü ildə Azərbaycan Tibb Universiteti tərəfindən təsis olunub və Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 may 2014-cü il tarixli qərarı ilə elmi-praktik nəşrlərin siyahısına əlavə edilib. İldə 2 dəfə Azərbaycan, ingilis və rus dillərində çıxan elmi-praktik jurnalın baş redaktoru professor Lalə Allahverdiyevadır.

# Azərbaycan əczaçılıq elminə ağır itki üz verib

**Ömrünün 30 ilini bu sahədə elmi fəaliyyətə və tədrisə, həmçinin praktik əczaçılığa həsr etmiş Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi Maqsud Aslanov ömrünün yetkin çağında dünyasını dəyişib.**



Aslanov Maqsud Qəşəm oğlu 1966-cı il martın 2-də Qərbi Azərbaycanın Basarkeçər rayonunun Kəsəmən kəndində anadan olub. 1983-cü ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Əczaçılıq fakültəsinə daxil olub və 1988-ci ildə “provizor” ixtisası üzrə bitirib. 1988-93-cü illərdə Bakıda 259 №-li mərkəzi aptekdə əczaçı-texnoloq vəzifəsində, 1993-98-ci illərdə Rusiyanın paytaxtı Moskva şəhərində bu sahədə işləyib. 1998-2009-cu illərdə Azərbaycan Tibb Universitetində baş laborant, assistent, 2009-cu ildən ömrünün sonunadək isə Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasında baş müəllim vəzifəsində çalışıb. O, 45-dən artıq elmi məqalə və tezislərin, 3 metodiki vəsaitin, 3 texniki şərtin və 1 dərs vəsaitinin müəllifidir.

M.Aslanov 2000-2005-ci illərdə Əczaçılıq fakültəsində təlim-tərbiyə işləri üzrə dekan müavini, fakültədə tələbələrin “Diplom işlərinin müdafiəsi” komissiyasının məsul katibi, 2017-ci ildən fakültə Elmi Şurasının üzvü olub. Azərbaycan Respublikası müəllimlərinin 2018-ci ildə keçirilən XV Qurultayının nümayəndəsi olub.

Yüksək insani xüsusiyyətləri, bilik və bacarığı, alicənablığı ilə kollektivin böyük hörmətini, tələbələrin dərin rəğbətini qazanmış Maqsud müəllimin işıqlı xatirəsi həmkarlarının, tələbələrinin, onu tanıyan hər kəsin qəlbində əbədi yaşayacaq.

Allah rəhmət eləsin!

**Azərbaycan Tibb Universitetinin rektorluğu, Həmkarlar İttifaqı Komitəsi, Əczaçılıq fakültəsi, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların dosentləri:**

- II Cərrahi xəstəliklər kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**

- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,75 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,75 vahid)
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**

- Tibb və sağlamlıq elmləri təhsili kafedrası - 3 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi, 14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. “Pedaqoji peşəkarlığın inkişafı” mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

### Allah rəhmət eləsin!

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın laborantı Vəfa xanıma qaynanası
**Məhəbbət xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili və Xarici dillər kafedralarının əməkdaşları Azərbaycan dili kafedrasının dosenti Pərvinə Əzizovaya oğlu
**Əlifin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın dosenti Sevda Kadiyevaya qohumu
**Rəna xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi İlqar Tahirova qaynanası
**Narıngül xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya kafedrasının əməkdaşları kafedranın dosenti Aydın müəlllimə əzizi
**Mətanət Qasımovanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın dosenti Məlahət xanıma qardaşı
**Teymur bəyin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0009
Sayı 800